## ÇAĞDAŞ POEZİYAMIZDA ZƏRİF MEH SƏSİ
**Mahirə Nağıqızının bədii yaradıcılığı haqqında düşüncələr**

Bədii yaradıcılığı haqqında danışmaq istədiyim şəxsin bioqrafiyasına nəzər salanda zəhmətli bir yol görünür. Belə ki, Mahirə Nağıqızı (Mahirə Nağı qızı Hüseynova) 1960-cı ildə gözəl bir payız günü, noyabr ayının 4-də Naxçıvan Muxtar Respublikasının Naxçıvan rayonu (indiki Babək rayonu) Sust kəndində anadan olub. 1968-ci ildə həmin rayonun Xalxal kənd səkkizillik məktəbinin birinci sinfinə daxil olub, yaşayış yerini dəyişməklə əlaqədar olaraq 1978-ci ildə Abşeron rayonu Novxanı qəsəbəsindəki Mehdi Hüseynzadə adına 1 saylı orta məktəbi bitirib. 1980-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (ADPU-nun) filologiya fakültəsinə qəbul olunub və 1984-cü ildə institutu fərqlənmə diplomu ilə bitirib. Elə həmin ildən də təyinatla Abşeron rayonu Mehdiabad qəsəbə 1 saylı orta məktəbdə müəllim kimi əmək fəaliyyətinə başlayıb. Müxtəlif illər ərzində Təhsil Nazirliyi tərəfindən "Respublikanın qabaqcıl təhsil işçisi" adına layiq görülub, qızıl döş nişanı ilə təltif edilib, 2003-cü ildə "İlin nümunəvi müəllimi" Respublika müsabiqəsinin qalibi kimi I dərəcəli diplomla mükafatlandırılıb. 2004-cü ildə Azərbaycan Respublikasının "Qaqbaqcıl təhsil işçisi" döş nişanına, 2007-ci ildə "Qızıl qələm" və "İlin alimi" mükafatlara layiq görülub.

2008-ci ildən ömrünü Azərbaycan Dövlət Pedaqoji Universitetinə bağlayan Mahirə xanım əvvəlcə Müasir Azərbaycan dili kaferasının müəllimi, 2014-cü ildən baş müəllim, 2015-ci ildən həm Müasir Azərbaycan dili kafedrasının dosenti, eyni zamanda həmin kafedranın müdiri vəzifəsinə təyin olunub. 2018-ci ildən Müasir Azərbaycan dili kafedrasının professoru adını alıb və həmin ilin dekabr ayının 10-dan Universitetinin Filologiya fakültəsinin dekanı vəzifəsinə seçilib. 2021-ci ildən isə ADPU-nun Beynəlxalq Əlaqələr üzrə Prorektoru vəzifəsində çalışır.

2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülüb, həmçinin "Səməd Behrəngi" Beynəlxalq mükafatını alıb. Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Müşahidə Şurasının üzvüdür. 2020-ci ildən təsisçisi olduğu "Linqvistika problemləri" Beynəlxalq Elmi jurnalının baş redaktorudur.

Bədii yaradıcılıqla paralel şəkildə elmi araşdırmaları ilə də diqqəti cəlb edən Mahirə Hüseynova 2001-ci ildən Qərbi Azərbaycanın Dərələyəz mahalı üzrə tədqiqatlar aparır. Həmin mahalın aşıq və el şairlərinin yaradıcılığı, onomastik vahidləri haqqında xeyli material toplayıb, 2012-ci ildə başladığı işi uğurla davam etdirərək filologiya üzrə fəlsəfə doktoru elmi adını qazanıb. 2017-ci ildə "XIX-XX əsr Azərbaycan aşıq və el şairlərinin yaradıcılığının dil, üslub xüsusiyyətləri" adlı dissertasiyasını uğurla müdafiə edərək filologiya elmləri doktoru adına layiq görülüb. Azərbaycan dilçiliyinin müxtəlif sahələri üzrə araşdırmaları ilə seçilən Mahirə xanım 40-a yaxın elmi kitabın - monoqrafiya, dərs vəsaiti, metodik vəsait, proqramın müəllifidir. Alimin respublikamızın nüfuzlu jurnallarında (o cümlədən, xarici mətbuatda), qəzet və digər mətbu orqanlarda 400-ə qədər elmi məqaləsi çap olunub.

Tələbəlik illərində bədii yaradıcılığa başlayan Mahirə xanım 20-yə yaxın bədii kitabın müəllifidir.

Respublika mətbuatında onun kitabları haqqında 300-dən çox məqalə dərc olunub, şeirlərinə 30-dan çox mahnı bəstələnib, həmçinin aşıqların repertuarında 70-dən çox şeiri saz havaları üzərində dilləndirilib.

Bu, Mahirə xanımın geniş elmi və bədii yaradıcılığının yazıma sığışdırdığım çox qısa bir hissəsidir. Amma mən daha çox şairə Mahirə Nağıqızı haqqında düşüncələrimi bölüşmək fikrindəyəm.

Mahirə xanımın sevilən şeirləri arasında "Unuduruq" adlı bir nümunə də var. "Unuduruq" deyəndə çoxumuz həzin sevgi notları üzərində kəpənək kimi uçuşuruq. Amma Mahirə xanım bizi başqa bir aləmə aparır:

Süzə-süzə, düzə-düzə gəlirik,
Görən nəyi unuduruq həyatda?
Çəmənlərdə çələng də düzəldirik,
Görən nəyi unuduruq həyatda?

Sınağa çəkəndə həyat birini,
Verə bilirikmi kömək əlini?
Bir nadana göstərmirik yerini,
Görən nəyi unuduruq həyatda?

Şairləri şairlərdən yaxşı kimsə anlamaz, mənim fikrimcə. Mahirə xanımın "Gözlərim" adlı şeirini oxuyanda bir az özümü gördüm. Elə bildim, o şeiri mən, özüm haqqında yazmışam. Çünki şairlərin, demək olar ki, hamısı sözün adamı olduqlarından, bəzən sözlərə açıblar sirlərini. Bu yaxınlarda, - şairin sirri olmur, - dedi, Rüstəm Behrudi. Yəni şairin nəyi varsa, şeirlərində gizlədib. Duyumlu oxucu, diqqətli oxucu o şeirlərdə şairin nə yaşadığını tuta bilər. İndi isə gələk həmin şeirə. "Gözlərim" şeirində Mahirə xanım şairlərin tənhalığına ayna tutur:

Gecələri şirin-şirin yatmadım,
Dərdi yarı-yarı böldü gözlərim.
İçim yandı, alov ərşə dayandı,
Ovutdu dərdimi, güldü gözlərim...

Ömrümün ən şirin ötən çağları,
Sinəmə çəkilən düyün dağları,
Tapa bilməyəndə qəm otaqları,
Yığıb dərd-qəmini doldu gözlərim.

Mahirə xanım haqqında yazılmış bir məqalədəki bu fikirlər xüsusən onun şeirlərini küll halında oxuduqda əsaslı şəkildə öz təsdiqini tapır: "Mahirə Nağıqızı zəngin yaradıcılığı öz şəhdini, şirəsini xalqımızın minilliklər boyu yaşatdığı milli folklorumuzdan almış, ona yeni rəng, yeni nəfəs, yeni ruh qataraq çağdaş dövrümüzün söz xəzinəsində əbədiyyət qazandırmışdır. Şair əsrlərdən süzülüb gələn qədim adət-ənənələrə söykənərək, milli kimliyimizi, mənəvi-əxlaqi dəyərlərimizi, xalqımızın mübarizələrlə dolu qəhrəmanlıq salnaməsini öz poetik dünyasında qərarlaşdırmış, fəlsəfi məzmun və mündəricəyə malik olan yüksək tendensiyalı əsərlər yaradaraq oxucuların ixtiyarına vermişdir".

44 günlük zəfərimizin qazanılmasında bir çox amillər kimi şairlərin vətənpərvərlik ruhunda yazdığı şeirlərin də rolunun olduğu aydındır. Bu mənada, "Sən döyüşə hazır ol" şeirində Mahirə xanım hələ 44 günlük zəfərimiz əldə edilməmişdən illər əvvəl yazırdı:

...Sən vətənin gücüsən,
vətənin əsgər oğlu,
Vətən haya çağırmaz,
haraylamaz hər oğlu.
Qızlar gül-çiçəyiylə
süslər müzəffər oğlu,
O gəlişin naminə, son döyüşə hazır ol!

Ötən il "Naxçıvanlı şairlərin şeirlərində Heydər Əliyev obrazı" mövzusunda bir məqalə işləyirdim. Təbii ki, Ulu öndər haqqında çox yazılıb, peşəkar şairlər də, həvəskarlar da öz şeirlərində Heydər Əliyevin obrazını yaratmağa çalışıblar. Lakin elmi məqalə yazırsansa, işə həm də elmi yanaşmalı, peşəkar münasibət göstərməli, peşəkar qələm sahiblərinin nümunələrinə daha çox diqqət

yetirməlisən. Odur ki, Mahirə xanımın "Heydər Əliyev dastanı" adlı şeirini də obraz yaradıcılığı baxımından təhlilə cəlb etmişdim. Həmin şeirdə Mahirə xanım deyir ki:

Haqq işini görmək üçün qayıtdın,
Haqqa güman vermək üçün qayıtdın.

Xalqa inam vermək üçün qayıtdın,
Bu tarixdir, bir nəfəsə oxunur.

Yaradıcılığı ilə bütöv halda tanışlıqdan sonra bu qənaətə gəldim ki, Mahirə Nağıqızı özü də bir şeirdir: Anasının yazdığı şeir. Və anası yazan şeirin hər misrasında xalq ruhu, xalq poeziyası boy göstərir. Təsadüfi deyil ki, müəllifin şeir kitablarının əksəriyyətində ana obrazı ad mərtəbəsinə yüksəlib: "Mənim anam" (2006), "Su at dalımca, ana" (2006), "Ana sevgisindən doğan nəğmələr" (2008), "Yaşadacaq anam məni" (2009), "Ana kəndim Xalxalım" (2010), "Analı dünyam" (2015).

Mahirə Nağıqızı yaradıcılığında "Bayatılar" ayrıca bir mərhələdir. Düşünürəm ki, bu bayatılar ana südü ilə varlığına ötürülüb və bu gün həmin bayatılar ana südüylə yoğrularaq su üzünə çıxır:

Çarə yolu yüz olar,
Biri də dümdüz olar.
Qaranlıqqalan deyil,
Axırı gündüz olar.

Yaxud:

Dərdi küncə qoyalar,
Bircə-bircə qoyalar.
Ürək torpaq deyil ki,
Bir il dincə qoyalar.

Bu bayatıları oxuduqdan sonra Mahirə xanımın "Onun daş nağılı" kitabına "Daşlaşan həqiqətin poeziyası" adlı ön söz yazmış akademik Möhsün Nağısoylunun nə qədər də haqlı olduğu bir daha görünür: "Mahirə Nağıqızının yaradıcılığına xarakterik cəhətlərdən biri, bəlkə də ən birincisi, onun şeir yaradıcılığının poeziyamızın yaşarı ənənələrinə sıx bağlılığıdır. Bu bağlılıqda həyat və onun gerçəkliyinin inikası çox aydın ifadə olunur. Ümumilikdə isə Mahirə xanımın zəngin və rəngarəng poetik dilinin linqvopoetikası, poetik sintaksisi, üslubi frazeologiyası, onomastik vahidləri təkrarsız bir şəkildə, yaradıcılıq axtarışlarının nəticəsi olan formada aşkarlandığından cəlbedicidir, lirizmi, musiqiliyi ilə seçilir, fərqlənir".

Mahirə xanımı mətbuatdan oxuyan, müxtəlif qəzetlərdə haqqında yazılmış məqalələrədən tanıyan, son bir neçə ildə Naxçıvanda keçirilən elmi konfranslarda, görüşlərdə, kitab təqdimatlarında canlı olaraq dinləyən biri kimi bunu da deyim ki, əziz, unudulmaz dayısı, görkəmli alim Həsən Mirzəyev xalqımız üçün çox qiymətli bir irs qoyub getdiyi kimi, Mahirə Nağıqızı da bu mənəvi irsi daha da zənginləşdirməkdə, onun dəyərini, gərəkliliyini daha da artırmaqdadır.

Yenidən poeziya üzərinə, şairlik və şeir yaradıcılığı mövzusuna dönərək bir mühüm, təsirli məqamı xüsusi qeyd etmək istərdim: Mahirə xanımı, onun çıxışlarını, söhbətlərini, şeir deməsini dinləyərəkən şəxsən mənə elə gəlir ki, çox zərif, xəfif bir səhər yeli həzin-həzin ağaclara sığal çəkir, insanın ruhu oxşayır. Və qoy bu iki bənd də yazımda son söz yerinə olsun:

O da dağ, bu da dağ, ayrı-ayrıdı,
Çayını aparan dərəsi birdi.
Yalında gözləyə, yan-yörəsində
Yüz ovçu dayana, bərəsi birdi.

Kimdi ox olanı, kimdi yay çəkir,
Kimdi qazan asan, kimdi pay çəkir?
Neçə min ildir ki, ərlər hay çəkir,
Dərdləri cürbəcür, nərəsi birdi.

Şairlər də belədir. Dərdləri cürbəcürdür, amma sığındıqları yer birdir: Söz. Sözünüz min budaq olsun, Mahirə xanım!

**Elxan Yurdoğlu**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent, şair-publisist**

***525-ci qəzet .- 2024.- 17 oktyabr(№190).-S.13.***